# Əmtəə birjası haqqında

# Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası ərazisində əmtəə birjalarının yaradılması və fəaliyyəti, birja ticarəti, əmtəə birjalarında fəaliyyətin hüquqi təminatları üzrə münasibətləri tənzimləyir.

## *I fəsil. Ümumi müddəalar*

### *Maddə 1. Əmtəə birjası və birja ticarəti haqqında qanunvericilik*

Əmtəə birjalarının fəaliyyəti və birja ticarəti ilə bağlı olan münasibətlər bu Qanunla və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə, habelə birjaların qanunvericiliyə müvafiq qəbul olunmuş təsisat sənədləri, birja ticarəti qaydaları və birjaların digər daxili sənədləri ilə tənzimlənir.

Əmək, fond və valyuta birjalarının, həmçinin əmtəə birjalarının fond və valyuta şöbələrinin fəaliyyəti ilə bağlı münasibətlər bu Qanunla tənzimlənmir.

### *Maddə 2. Qanunda istifadə olunan əsas anlayışların izahı*

Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaya malikdir:

- «**Əmtəə birjası**» - müəyyən edilmiş birja qaydaları əsasında əvvəlcədən təyin olunmuş yerdə və vaxtda aşkar kütləvi sövdələşmə şəklində həyata keçirilən topdansatış ticarət bazarını təşkil etmək məqsədi güdən hüquqi və (və ya) fiziki şəxslərin könüllü birliyi əsasında yaradılan hüquqi şəxs statuslu təşkilatdır.
- «**Birja əmtəəsi**» - birja tərəfindən müəyyənləşdirilmiş qaydada birja ticarətinə buraxılmış və dövriyyədən çıxarılmamış əmtəə, o cümlədən həmin əmtəə üzrə standart kontraktdır. Hər hansı daşınmaz əmlak və ya əqli mülkiyyətin obyekti birja əmtəəsi ola bilməz.
- «**Birja əqdi**» - birja sövdələşmələri gedişində birja əmtəəsi üzrə birja ticarətinin iştirakçıları arasında (öz adlarından və ya üçüncü şəxslərin tapşırığı ilə) bağlanan və müəyyənləşdirilmiş qaydada qeydiyyatdan keçmiş müqavilədir (sazişdir).

- «**Məzənnə**» - əqd bağlananda satıcıları və alıcıları istiqamətləndirməkdən ötrü müəyyən müddət və ya vaxt üçün tələb və təklifi nəzərə almaqla əmtəələrin qiymətini aydınlaşdırmaq və qeydə almaqdır.
- «**Broker**» - birja əqdlərinin müəyyənləşdirilmiş qaydada müştərinin adından onun hesabına, müştərinin adından öz hesabına, yaxud öz adından müştərinin hesabına bağlanmasını həyata keçirən birja vasitəçisidir.
- «**Diler**» - birja əqdlərinin müəyyənləşdirilmiş qaydada öz adından, öz hesabına bağlanmasını həyata keçirən və sonradan onu birjada satmaqla məşğul olan birja vasitəçisidir.

***Maddə 3. Əmtəə birjasının hüquqi statusu***

1. Əmtəə birjası (bundan sonra birja) müstəqil hüquqi şəxsdir və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş təşkilat şəklində yaradılır.

2. Birja bilavasitə birja ticarətinin təşkili və onun tənzimlənməsi ilə bağlı fəaliyyəti həyata keçirir.

3. Birja bilavasitə birja ticarətinin təşkili ilə bağlı olmayan kommersiya fəaliyyəti ilə məşğul olmur və mənfəət (gəlir) götürməyi qarşısında məqsəd qoymur.

***Maddə 4. Əmtəə birjasının fəaliyyətinin əsas prinsipləri***

Birja öz fəliyyətini birja ticarəti iştirakçılarının hüquq bərabərliyinin təmin edilməsi, sərbəst (bazar) qiymətlərin tətbiqi, birja ticarətinin aşkarlığı prinsipləri əsasında həyata keçirir.

***Maddə 5. Əmtəə birjasının hüquqları və vəzifələri***

Birjanın aşağıdakı hüquqları vardır:

- bu Qanuna və Azərbaycan Respublikasının digər qanunvericiliyinə uyğun bütün birja iştirakçıları üçün məcburi sayılan birja ticarəti qaydasını müəyyənləşdirmək;
- dövlət standartlarını nəzərə almaqla nümunəvi kontraktlar işləyib hazırlamaq;
- gün ərzində birja əqdlərinin qiyməti birja komitəsi (birja şurası) tərəfindən müəyyənləşdirilmiş həddən çox dəyişilərsə, birja ticarətini müvəqqəti dayandırmaq;
- birjada qeyri-birja əqdləri bağlanmasını həyata keçirən birja iştirakçılarına qarşı nizamnamədə nəzərdə tutulmuş sanksiyaları tətbiq etmək;

- birja əqdlərində mübahisələri həll etmək üçün münsiflər məhkəməsi səlahiyyətində arbitraj komissiyası yaratmaq;
- digər birjalarda, o cümlədən xarici ölkə birjalarında öz nümayəndəsini saxlamaq;
- birja bülleteni, soraq kitabçaları və digər məlumat və reklam informasiyaları dərc etmək.

Birjanın aşağıdakı vəzifələri vardır:

- birja ticarətinin həyata keçirilməsi üçün şərait yaratmaq;
- birja üzvlərinə və iştirakçılarına təşkilati və digər xidmətlər göstərmək;
- birja iştirakçılarının tələbi ilə birjada ağlı-satqı obyekti olan real əmtəənin keyfiyyətinin ekspertizasını təşkil etmək.

***Maddə 6. Birja ittifaqları, assosiasiyaları və digər birlikləri***

1. Birjalar öz fəaliyyətini əlaqələndirmək, öz üzvlərinin mənafelərini qorumaq və birgə proqramları həyata keçirmək üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq ittifaqlar, assosiasiyalar və digər birliklər yarada bilərlər.

Birjalar birgə ticarət təşkil etmək üçün öz aralarında sazişlər bağlaya bilərlər.

2. Bu Qanuna və Azərbaycan Respublikasının antiinhisar qanunvericiliyinə zidd olan birja ittifaqlarının, assosiasiyalarının və digər birliklərinin yaradılması, habelə birjaların birja ticarətində rəqabəti aradan qaldırmaq, yaxud onu məhdudlaşdırmaq məqsədi güdən sazişləri və hərəkətləri qadağandır.

***Maddə 7. «Birja» sözündən istifadə***

«Birja» sözündən özünün firma adında, yaxud işgüzar və ya adi reklam məqsədilə yalnız bu Qanunda və ya birjalar haqqında Azərbaycan Respublikasının digər qanunvericiliyində nəzərdə tutulmuş qaydada təsis edilmiş hüquqi şəxs istifadə edə bilər.

***II fəsil. Əmtəə birjasının təsis edilməsi, idarə olunması və fəaliyyətinə xitam verilməsi***

***Maddə 8. Əmtəə birjasının təsis edilməsi və dövlət qeydiyyatı***

1. Birja hüquqi və (və ya) fiziki şəxslərin könüllü birliyi əsasında yaradılır və müəyyənləşdirilmiş qaydada dövlət qeydiyyatından keçməlidir. Birjanın təsisçiləri eyni zamanda onun üzvləri sayılır.

2. Dövlət hakimiyyəti və idarəetmə orqanları, habelə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlar, eləcə də bu Qanunun 11-ci maddəsinin 2-ci bəndində göstərilən hüquqi və fiziki şəxslər birjanın təsisçisi ola bilməzlər.

3. Birja təsisçilər tərəfindən bağlanmış təsis müqaviləsinə əsasən yaradılır.

4. Birjanın hər bir təsisçisinin payı onun nizamnamə fondunun 20 faizindən çox olmamalıdır.

***Maddə 9. Birja ticarətinin təşkili üçün lisenziya***

1. Azərbaycan Respublikası ərazisində birja ticarətinin təşkili müvafiq dövlət orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada verilən lisenziya əsasında həyata keçirilir.

~~2. Birja lisenziya almaq üçün o halda müraciət edə bilər ki, təsisçilər nizamnamə fondunun 50 faizini ödəmiş olsunlar.~~

3. Birja ticarətinin təşkili üçün lisenziya birjaya onun təsis sənədlərinin və birja ticarəti qaydalarının bu Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olduğu müəyyənləşdirildikdən sonra, habelə sənədləri lazımi qaydada rəsmiləşdirib ərizə təqdim edildiyi gündən 15 gün müddətində verilir.

4. Birjanın təsis sənədlərinin və birja ticarəti qaydalarının bu Qanunun tələblərinə uyğun gəlmədiyi hallarda ona lisenziya verilməkdən imtina edilir.

~~5. Lisenziya verilmədikdə təkrar ərizənin təqdim edildiyi gündən ən geci 10 gün keçənədək lisenziya verilməsi məsələsinə yenidən baxılır. Birinci dəfə göstərilmiş dəyişikliklər birjanın təsis sənədlərinə və birja ticarəti qaydalarına daxil edilməmişdirsə, lisenziya verilməməsi barədə təkrar qərar çıxarılır.~~

6. Birja lisenziyanın verilməməsi, ləğv edilməsi, yaxud qüvvəsinin dayandırılması barədə qərardan *inzibati qaydada və (və ya) məhkəməyə* şikayət verilə bilər.

7. Lisenziyanın verilməsi, ləğv edilməsi və qüvvəsinin dayandırılması qaydaları *müvafiq icra hakimiyyəti orqanı tərəfindən* müəyyənləşdirilir.

***Maddə 10. Əmtəə birjasının ləğv edilməsi***

Birja onun ali idarəetmə orqanının, habelə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda məhkəmənin qərarı ilə ləğv edilə bilər.

***Maddə 11. Əmtəə birjasının üzvləri***

1. Birjanın nizamnamə fondunun yaradılmasında iştirak edən və (və ya) birjanın nizamnaməsi ilə müəyyənləşdirilmiş qaydada üzvlük haqqı və ya digər məqsədli ödənişlər verən hüquqi və fiziki şəxslər birjanın üzvü sayılır.

2. Aşağıdakılar birjanın üzvü ola bilməzlər:

- bu və ya digər əmtəə birjasının qulluqçuları;
- rəhbərləri birjanın qulluqçusu olan müəssisə və təşkilatlar;
- ali və yerli dövlət hakimiyyəti və idarəetmə orqanları;
- banklar, kredit və sığorta təşkilatları;
- siyası partiyalar, həmkarlar ittifaqları, ictimai birliklər, dini və xeyriyyə təşkilatları və fondları;
- qanunla sahibkarlıq fəaliyyəti hüququndan məhrum edilmiş fiziki şəxslər.

3. Birja üzvlüyünə qəbul və onun tərkibindən çıxma qaydası əmtəə birjasının nizamnaməsi ilə tənzimlənir.

Birja öz üzvlərinə müvafiq şəhadətnamə verir.

4. Birja üzvlərinin:

- bu Qanuna uyğun birja ticarətində iştirak etmək;
- birjanın fəaliyyəti ilə bağlı məsələlərin həllində iştirak etmək, onun rəhbər orqanlarını seçmək və ora seçilmək;
- birjanın bütün xidmətlərindən istifadə etmək, habelə bu Qanunda və birjanın nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malikdir.

5. Birjanın tam və natamam üzvləri ola bilər.

Tam üzvlərin birjanın bütün bölmələrində (şöbələrində), natamam üzvlərin birjanın müəyyən bölmələrində (şöbələrində) birja ticarətində iştirak etmək hüququ vardır.

Birjanın tam və natamam üzvləri birjanın nizamnaməsinə uyğun olaraq müəyyənləşdirilmiş qaydada ümumi yığıncaqda səs hüququna malik olurlar.

6. Birja üzvü birja ticarətində iştirak etmək hüququnu müəyyən müddətdə yalnız bir hüquqi, yaxud fiziki şəxsə icarəyə vermək hüququna malikdir. Bu barədə müqavilə birjada qeydiyyatdan keçməlidir. Birja ticarətində iştirak etmək hüququnun ikinci əldən icarəyə verilməsi qadağandır.

7. Birja üzvlüyünə qəbuldan imtina etmək, habelə birja üzvlüyündən xaric etmək, yaxud birja üzvlüyünü dayandırmaq qərarından müəyyənləşdirilmiş qaydada müvafiq məhkəməyə müraciət oluna bilər.

8. Birja təsisçiləri birja üzvlərinin bütün hüquqlarına malikdirlər. Onlar birjanın nizamnaməsində nəzərdə tutulan və birja ticarətində bərabərlik prinsipini pozmayan xüsusi hüquq və vəzifələrə malik ola bilərlər.

9. Birja üzvləri birja nizamnaməsinin tələblərinə, birja ticarəti qaydalarına, ümumi yığıncağın və birja komitəsinin (birja şurasının) qərarına əməl etməli, birjanın nəzarət orqanlarına müəyyənləşdirilmiş qaydada zəruri məlumatları verməli, birja fəaliyyəti haqqında məxfi məlumatları və kommersiya sirrini yaymamalıdırlar.

***Maddə 12. Əmtəə birjasının nizamnaməsi***

1. Birja təsisçilərin ümumi yığıncağında təsdiq edilmiş nizamnamə əsasında fəaliyyət göstərir. Nizamnamədə aşağıdakı məlumatlar göstərilməlidir:

- birjanın adı və yerləşdiyi yer;
- təsisçilərin tərkibi;
- birjanın idarəetmə strukturu və nəzarət orqanı, onların funksiyaları və hüquqları, qərar qəbul etmə qaydası;
- nizamnamə fondunun məbləği;
- daimi fondların siyahısı və onların formalaşdırılması qaydası;
- birja ticarəti qaydalarının hazırlanması və qəbulu qaydası;
- birja üzvlərinin maksimum sayı;
- birja üzvlüyünə qəbul, birjada üzvlüyün dayandırılması və ona xitam verilməsi qaydası;
- birja üzvlərinin və birja ticarətinin digər iştirakçılarının hüquq və vəzifələri;
- birja ticarəti iştirakçıları arasında yaranan mübahisələrin həlli qaydası.

2. Nizamnamədə birjanın yaradılması və fəaliyyəti ilə bağlı digər məsələlər də nəzərdə tutula bilər.

***Maddə 13. Əmtəə birjasının idarəetmə orqanları***

1. Birjanın ali və idarəetmə orqanı onun üzvlərinin ümumi yığıncağıdır. Ümumi yığıncaqlar arasındakı müddətdə əmtəə birjasına rəhbərliyi birja komitəsi (birja şurası) həyata keçirir.

2. Birjanın nəzarət (təftiş) komissiyası onun nəzarət orqanıdır.

3. Birja komitəsi (birja şurası) və nəzarət (təftiş) komissiyası əmtəə birjası üzvlərinin ümumi yığıncağı tərəfindən seçilir, onların səlahiyyəti və hüquqları əmtəə birjasının nizamnaməsi ilə müəyyənləşdirilir.

4. Əmtəə birjasının fəaliyyətinə operativ rəhbərliyi birja komitəsinin (birja şurasının) təyin etdiyi idarə heyəti həyata keçirir.

İdarə heyəti birjanın fəaliyyət göstərməsini təmin edir və onun bütün struktur bölmələrinə rəhbərlik edir.

Birjanın struktur bölmələri birja komitəsinin (birja şurasının) təsdiq etdiyi əsasnaməyə uyğun fəaliyyət göstərir.

***Maddə 14. Birja ticarəti qaydaları***

1. Birja ticarəti qaydaları Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq işlənib hazırlanır və birja üzvlərinin ümumi yığıncağı tərəfindən təsdiq edilir.

Birja ticarəti qaydaları birja əməliyyatlarını həyata keçirmək və onunla bağlı mübahisəli məsələləri həll etmək üçün əsas sənəd sayılır.

2. Birja ticarəti qaydalarında aşağıdakılar öz əksini tapmalıdır:

- birja əməliyyatları keçirildiyi yer və vaxt;
- birja sövdələşməsinin aparılması qaydası;
- birja əqdlərinin növləri;
- birja ticarəti iştirakçılarına qarşıdakı birja sövdələşməsi haqqında məlumat vermək qaydası;
- birja əqdlərinin qeydə alınması və uçotu qaydası;
- birja əmtəələrinə məzənnə qoyulması qaydası;
- birja ticarəti iştirakçılarına birja sövdələşmələrində birja əqdləri, o cümlədən birja əqdələrinin qiymətləri haqqında məlumatlar vermək qaydası;

- birja üzvlərinə və birja ticarətinin digər iştirakçılarına əmtəə bazarları və birja əmtəələrinin bazar konyunkturası haqqında məlumat vermək qaydası;
- birja əqdləri bağlanmasında birja üzvlərinin və birja ticarətinin digər iştirakçılarının qarşılıqlı hesablaşmalar aparması qaydası;
- birjada qiymətlərin səviyyəsinin gün ərzində kəskin surətdə artmasına, yaxud azalmasına, süni olaraq qiymətlərin artırılmasına, yaxud azaldılmasına, qiymətlərə təsir məqsədilə şayiələr yayılmasına yol verməmək məqsədilə birjada qiymətyaranma prosesinə nəzarət tədbirləri;
- birja ticarəti qaydalarını pozmağa görə sanksiyalar;
- birja xidmətindən istifadəyə görə birjaya ödənilən ayırmaların, rüsumların, tariflərin və digər ödənişlərin həcmi və onların alınması qaydası;
- birjanın iş reqlamenti;
- birja əməliyyatlarını tənzimləyən birjanın idarəetmə orqanları tərəfindən müəyyənləşdirilmiş digər qaydalar.

## *III fəsil. Birja ticarətinin təşkili*

### *Maddə 15. Birja ticarətinin iştirakçıları, onların hüquq və vəzifələri*

1. Birja üzvləri, birjaya daimi və ya bir dəfə gələnlər birja ticarətinin iştirakçıları sayılır.

2. Birjanın üzvü olmayan, birja sövdələşmələrində iştirak etmək hüququ olmayan hüquqi və fiziki şəxslər birja sövdələşmələrində yalnız birja vasitəçilərinin təmsilçiliyi ilə iştirak edə bilərlər.

3. Birja ticarətində müəyyənləşdirilmiş qaydada birja ticarətində iştirak etmək hüququ almış birja vasitəçiləri iştirak də bilərlər.

4. Broker firması, yaxud müstəqil broker sayılmayan birja üzvləri birja ticarətində birja vasitəçisi kimi deyil, öz adından və yalnız öz hesabına, ancaq real malın alğı-satqısında iştirak edə bilərlər.

5. Birja ticarətində birja vasitəçiliyini yalnız birja vasitəçiləri, təsisçilərin və üzvlərin nümayəndələri, broker firmaları (kontorları) və müstəqil brokerlər həyata keçirirlər.

6. Birja ticarətinin iştirakçıları öz hüququ daxilində birja sövdələşmələrini bilavasitə öz adından və öz hesabına, yaxud müştərinin adından və onun hesabına, yaxud öz adından və müştərinin hesabına, yaxud müştərinin adından və öz hesabına həyata keçirirlər.

7. Birja və onun qulluqçuları birja sövdələşmələrində bağlanan əqdin tərəfi kimi çıxış edə bilməzlər.

8. Birjanın üzvü olmayan, birjanın nizamnaməsinə uyğun olaraq birja ticarətində iştirak etməyə buraxılmış hüquqi və fiziki şəxslər birjaya gələnlər sayılır. Birjaya gələnlər daimi və ya bir dəfə gələnlər ola bilərlər.

9. Birjaya daimi gələnlər birjanın nizamnamə fondunun yaradılmasında və birjanın idarə edilməsində iştirak etmirlər. Birjaya daimi gələnlər birjanın xidmətindən istifadə edirlər və birja ticarətində iştirak hüququna görə birjanın müvafiq idarəetmə orqanı tərəfindən müəyyənləşdirilmiş məbləğdə haqq verməlidirlər.

10. Birjaya daimi gələnlər birja üzvlərinin ümumi sayının 30 faizindən çox olmamalıdır.

11. Birja ticarətinə bir dəfə gələnlərin yalnız öz adından və öz hesabına real əmtəə əqdi bağlamaq hüququ vardır.

***Maddə 16. Birja əqdlərinin növləri***

1. Birja ticarətinin iştirakçıları birja sövdələşmələrində aşağıdakı əqdləri bağlaya bilərlər:

- real malın alğı-satqısına dair, o cümlədən malı dərhal vermək və ya dərhal göndərməklə, yaxud mal üzərində mülkiyyət hüququna dair sənədləri verməklə bağlanan əqdlər;
- forvard əqdləri - göndərilməsi təxirə salınmaqla real malın alğı-satqısına dair əqdlər;
- fyuçers əqdləri - birja əmtəələrinin göndərilməsinə dair standart bağlaşmaların (kontraktların) alğı-satqısına dair əqdlər;
- opsion əqdləri - birja əmtəəsinin və ya birja əmtəəsini göndərməyə dair kontraktların gələcəkdə alğı-satqısı hüquqlarının müəyyənləşdirilmiş qiymətlərlə alğı-satqısına dair əqdlər;
- birja əmtəəsinin, kontraktların və ya hüquqların alğı-satqısına dair birja ticarəti qaydalarında müəyyənləşdirilmiş digər əqdlər;

2. Birja əqdlərinin qeydə alınması və rəsmiləşdirilməsi qaydasını birja müəyyənləşdirir.

3. Birjanın adından və onun hesabına əqdlərin bağlanılması qadağandır.

***Maddə 17. Birja vasitəçiləri***

1. Birja ticarəti iki yolla - broker və diler fəaliyyəti vasitəsi ilə həyata keçirilir.

2. Birja ticarətində birja vasitəçiliyi yalnız birja vasitəçiləri tərəfindən həyata keçirilir. Broker firması (kontoru) və müstəqil brokerlər birja vasitəçiləri sayılır.

3. Azərbaycan Respublikasının bu Qanununa əsasən yaradılan və fəaliyyət göstərən müəssisə broker firması sayılır.

4. Müəyyənləşdirilmiş qaydada sahibkar kimi uçota alınmış, öz fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxs müstəqil broker sayılır.

5. Birja vasitəçiləri birja ticarətində fyuçers və opsion əqdlərinin bağlanılmasını verilən lisenziya əsasında həyata keçirirlər.

6. Broker firması (kontoru) və müstəqil brokerlər birja ticarətində bağladıqları birja əqdlərinin hər bir müştəri üzrə uçotunu aparmalı və bu məlumatları əqd bağlandığı gündən sonra beş il müddətində saxlamalıdır.

7. Əmtəə birjasında brokerlərin sayını birja komitəsi (birja şurası) müəyyənləşdirir.

8. Brokerlərə onların iştirakı ilə bağlanmış birja əqdlərindəki kommersiya sirrlərini yaymaq, eyni zamanda mənafeləri bir birinə əks olan iki və daha çox müştəriyə xidmət etmək qadağandır.

9. Birja vasitəçiləri ilə onların müştəriləri arasında münasibətlər müvafiq müqavilə əsasında müəyyənləşdirilir.

Birja öz səlahiyyəti daxilində birja vasitəçiləri və onların müştəriləri arasındakı münasibətləri tənzimləyə bilər, habelə müəyyənləşdirilmiş qaydaları pozduğuna görə birja vasitəçilərinə sanksiyalar tətbiq edə bilər.

10. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq birja vasitəçiləri ictimai birliklər yarada bilərlər.

***Maddə 18. Birja ticarətində forvard, fyuçers və opsion əqdlərinin bağlanması***

1. Birja ticarətində forvard, fyuçers və opsion əqdlərinin bağlanmasını təmin etmək məqsədilə birja müəyyənləşdirilmiş qaydada hesablaşma xidməti (klirinq mərkəzi)

yaratmaq, yaxud bank (və ya kredit təşkilatı) ilə hesablaşma (kliring) xidməti təşkil etmək haqqında müqavilə bağlaya bilər.

2. Kliring mərkəzi aşağıdakı funksiyaları yerinə yetirməlidir:

- forvard, fyuçers və opsion əqdlərinin həyata keçirilməsinə təminat verən haqların növlərini, məbləğini və alınması qaydasını, iştirakçıların bu əqdlər üzrə öhdəliklərini tam, yaxud qismən yerinə yetirməməsi üzündən yaranmış ziyanın ödənilməsi qaydasını müəyyənləşdirmək;
- forvard, fyuçers və opsion əqdlərinin müəyyənləşdirilmiş qaydada kreditləşdirilməsini və iştirakçılarının sığortalanmasını həyata keçirmək.

***Maddə 19. Birjada qiymətyaranma qaydası***

1. Birjada əmtəə birja əqdlərinin tərəfləri arasında razılaşmada müəyyənləşdirilən sərbəst qiymətlə satılır.

2. Birjanın aşağıdakıları müəyyən etməsi qadağandır:

- birja ticarətində birja əmtəəsinə qiymət səviyyəsi və hədlər qoymaq;
- birja əqdlərinin bağlanmasında vasitəçiliyə görə birja brokerlərinin aldıqları haqqın məbləğini təyin etmək.

***Maddə 20. Əmtəə birjasında mübahisələrin həlli qaydası***

1. Birjada əqdlərin bağlanması zamanı meydana çıxan mübahisələrə birjanın arbitraj komissiyasında baxılır.

2. Birjanın arbitraj komissiyası əsas vəzifəsi tərəfləri barışdırmaqdan ibarət olan orqan kimi yaradılır.

3. Birjanın arbitraj komissiyasının qərarının icrası tərəflər üçün məcburidir.

***Maddə 21. Əmtəə birjalarının xarici iqtisadi fəaliyyəti***

1. Bu Qanunda və Azərbaycan Respublikası ərazisində qüvvədə olan digər qanunvericilik aktlarında əmtəə birjalarına verilmiş hüquqlar daxilində birja öz fəaliyyətini təşkil etmək məqsədilə öz adından xarici hüquqi şəxslər və vətəndaşlar, habelə vətəndaşlığı olmayan şəxslərlə əməkdaşlıq barəsində sazişlər bağlaya bilər.

2. Birja öz fəaliyyətinin təşkili üçün nəzərdə tutulmuş malları birja ticarətinə çıxarmaq hüququ olmadan idxal etmək barəsində sazişlər bağlaya bilər.

3. Birja ticarətinə çıxarmaq üçün nəzərdə tutulan malların idxal və ixracını birja vasitəçiləri, yaxud onların müştəriləri qanunvericiliklə müəyyənləşdirilmiş qaydada həyata keçirə bilərlər.

4. Birjanın Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyənləşdirdiyi qaydada mühüm məhsulların ixrac kvotalarını hərrac yolu ilə satmaq hüququ vardır.

***Maddə 22. Bu Qanunun pozulmasına görə sanksiyalar***

1. Bu Qanunun 3-cü maddəsinin 3-cü bəndini, 6-cı maddəsinin 2-ci bəndini, 8-ci maddəsinin 4-cü bəndini, 11-ci maddəsinin 2-ci bəndini, 15-ci maddəsinin 7-ci bəndini, 16-cı maddəsinin 3-cü bəndini, 19-cu maddəsinin 2-ci bəndini pozmuş birjaya verilmiş lisenziyanın qüvvəsi lisenziya verən dövlət orqanı tərəfindən 3 ay müddətində dayandırıla bilər.

2. Birja bu maddənin 1-ci bəndində göstərilən müddəaları pozmaqda davam edərsə, müvafiq dövlət orqanı birja ticarətinin təşkili üçün birjaya verdiyi lisenziyanı ləğv etmək hüququna malikdir.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 25 may 1994-cü il***

***№ 803***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (18 avqust 1994-cü il, № 160).***

***«Azərbaycan Respublikasının Ali Sovetinin Məlumatı»nda dərc edilmişdir (1994-cü il, № 16, maddə 211).***

***5 noyabr 1996-cı il tarixli, 188-IQD nömrəli; 5 oktyabr 2001-ci il tarixli, 190-IIQD nömrəli; 10 iyun 2005-ci il tarixli, 925-IIQD nömrəli; 9 oktyabr 2007-ci il tarixli, 429-IIIQD nömrəli; 9 oktyabr 2007-ci il tarixli, 430-IIIQD nömrəli qanunlara əsasən dəyişikliklər və əlavələrlə.***